# 2 fevral - gənclərin vətənsevərlik tərbiyəsində tarixi rəmzlərin böyük rolu...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Gənclik insan ömrünün ən gözəl, ən əhəmiyyətli dövrüdür. Gəncləri, gənc nəsli yararlı, faydalı insan kimi yetişdirib cəmiyyətə, dövlətə, ən nəhayəti dünyaya bəxş etmək çox mühüm məsələdir. Azərbaycanda gənc nəslin yetişdirilməsi üçün dövlət səviyyəsində xüsusi proqramlar hazırlanır, layihələr həyata keçirilir.**

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və onlarda vətənpərvərlik tərbiyəsinin daha yüksək səviyyədə həyata keçirilməsi üçün dövlət siyasəti mövcuddur. Azərbaycanda gənc nəslin mənəvi tərbiyəsinə xüsusi önəm verilir və bu istiqamətdə konkret tədbirlər həyata keçirilir. Azərbaycan dövlətinin çox mükəmməl gənclər siyasəti mövcuddur və gənclərlə bağlı çoxlu işlər görülür.

**2 fevral - gənclərin günü...**

Ölkəmizdə hər il ənənəvi olaraq 2 fevralın Gənclər Günü kimi qeyd edilməsinin də ayrı mənası, siyasi-mənəvi dəyəri var. Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, hər il fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb. Bir çox sahədə olduğu kimi, bu sahədə də Azərbaycan bir çox ölkələri qabaqlayıb. Belə ki, Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (8-12 avqust 1998-ci il) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli 54/120 saylı qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edilib.

2 fevral Gənclər Gününün ölkəmizdə ənənəvi olaraq qeyd edilməsinin gənc nəslin milli mənlik şüurunun formalaşmasında oynadığı rol nədən ibarətdir? Məlumdur ki, Gənclər Günü hər il keçirilir və Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva gəncləri təbrik edir, onların gələcəyinə böyük ümid bəslədiklərini vurğulayırlar. Dövlət başçısı gənc nəsilin inkişafı ilə bağlı indiyə qədər çoxlu sayda sənədlər imzalayıb, onları təltif edib, mükafatlandırıb, gəncliklə bağlı çox qiymətli fikirlər söyləyib...

**Prezident bu dəfə gəncləri belə təbrik etdi...**

Azərbaycan Prezidenti İlham Əliyev Gənclər Günü ilə bağlı paylaşım edib. Dövlət başçısının "Twitter" hesabındakı paylaşımında "Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm" sözləri qeyd edilib.

"Vəfa" Sosial İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli bizimlə söhbətində bildirdi ki, əksər sosioloqlar, psixoloqlar, pedoqoqlar, mütəxəsislər gəncliyin zamanın, dövrün hərəkətverici qüvvəsi olduğunu deyir, bu həqiqətdir. "Hər bir cəmiyyətin sağlam düşüncəli, təfəkkürlü gənclərə böyük ehtiyacı var. Bu gənclərin yetişməsi üçün isə, cəmiyyət özü zəmin yaratmalıdır. Milli mənlik şüuruna malik olan gənclərin formalaşması üçün beş-on il bəs etmir, bunun üçün illər lazımdır. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi ideoloqların qarşısında duran böyük bir vəzifədir. Bütün cəmiyyətlərdə bu ali hissin yüksək səviyyədə tərbiyə edilməsi tələb olunur. Azərbaycan da istisna deyil. Azərbaycan gəncliyi bölgədə öz vətənpərvərliyi, milli mənlik şüuruna sahib olan gənclər kimi həmişə sayılıb-seçilib. Deyərdik ki, çox zaman başqalarına nümunə olub. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə də onu deməyə əsas verir ki, bizim gənc nəsil milli mənlik şüuruna, vətənpərvərlik tərbiyəsinə malikdirlər. Biz gördük ki, illər boyu apardığımız təbliğat faydasız olmayıb.



Qürurverici haldır ki, biz bu 30 ildə milli mənlik şüuruna malik olan gənclərin yetişdirə bildik. Bizim vətənpərvərlik tərbiyəsinə malik saysız gənclərimiz var".

**Müzəffər gənclik...**

Gənclərin milli mənlik şüurunun formalaşmasında əsası ümummilli lider Heydər Əliyevin 1997-ci il tarixli sərəncamı ilə qoyulan 2 fevral Gənclər Gününün ölkəmizdə yüksək səviyyədə qeyd edildiyini diqqətə çatdıran F.Hacıbəylinin sözlərinə görə, ölkə gəncləri bu tarixi həmişə böyük qürurla keçirirlər. F.Hacıbəyli bildirdi ki, bu gün Prezident İlham Əliyev gənclərə böyük diqqət və qayğı ilə yanaşır və onların problemlərinin həlli istiqamətində böyük tədbirlər həyata keçirir. O, vurğuladı ki, Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. "Azərbaycan gəncliyi olduqca məsuliyyətli, vətənpərvər, milli şüurua sahib bir gənclikdir. Bu öz yerində. Biz bu istiqamətdə təbliğatımızı davam etdirməliyik. Hər zaman səsləndirildiyi kimi Azərbaycan gəncləri 2020-ci il 27 sentyabr tarixində öz davranışı ilə nəyə qadir olduğunu nümayiş etdirdi. Vətənpərvər gənclərimiz Vətən müharibəsində Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Gənclərin qəhrəmanlığı nəticəsində Azərbaycan Zəfər qazandı. Müsbət haldır ki, həm ön, həm də arxa cəbhədə, informasiya müharibəsində fəal iştirak etdi. Azərbaycan gəncliyi öz gücünü bu vətəndən, bu dövlətdən alır. Bütün bunlar göstərdi ki, 2 fevral Gənclər Günü gənclərin həyatında, ideoloji cəhətdən güclənməsində, milli mənlik şüurunun, vətənpərvərlik hisslərinin formalaşmasında çox böyük rol oynayıb.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**